# Ölkəmizi tanıyaq

## Məktəblilərimiz muzeylər şəhərinə ekskursiya edib

***“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyasında iştirak edən məktəblilərimiz ekskursiyanın sonuncu günü muzeylər və parklar şəhəri adlanan Xaçmazın görməli yerləri ilə tanış olublar.***



Qəbələ məktəbliləri şəhərin mərkəzindəki Heydər Əliyev parkında qarşılanıb və Heydər Əliyev Mərkəzində olublar.

Daha sonra məktəblilər Xaçmaz şəhərində Azərbaycanın görkəmli şair və yazıçılarının, mədəniyyət və incəsənət xadimlərinin büstü qoyulan, açıq səma altında yaradılan Şəxsiyyətlər Muzeyinə gəliblər.

Tur-aksiya iştirakçıları 2013-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyini də ziyarət ediblər. Diqqətə çatdırılıb ki, muzeydə həm ölkəmizin, həm də Xaçmaz rayonunun tarixini əks etdirən və turistlər üçün maraq doğuran çoxlu sayda eksponat var.

Məktəblilər Xaçmaz Dövlət Rəsm Qalereyası ilə tanışlıqdan sonra Bayraq Meydanı Kompleksinə gəliblər.

Meydan və Çənlibel parkında gəzintidən sonra məktəblilərimiz ekskursiyalarını başa vuraraq rayonumuza yola düşüblər.

**“Qəbələ”**

## “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksi ilə tanışlıq tur-aksiya iştirakçılarında böyük maraq yaradıb

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində respublikamızın şimal-qərb bölgəsinə ekskursiyaya çıxan Ağdaş, Füzuli, Göygöl, Siyəzən və Tovuz rayonlarının məktəbliləri noyabrın 19-da Qəbələ rayonunun istehsal müəssisələri, tarixi məkanları və görməli yerləri ilə tanış olublar.

Tur-aksiya iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzində olub, Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Sonra məktəblilər “Gilan Qida Şəhərciyi”nə gəliblər. Tur-aksiya iştirakçılarına məlumat verilib ki, şəhərciyin nəzdində konserv zavodu, sərinləşdirici içkilərin və kartof çipslərinin istehsalı müəssisələri fəaliyyət göstərir.

“Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksi ilə tanışlıq zamanı məktəblilərin diqqətinə çatdırılıb ki, kompleks bölgənin ən çox turist qəbul edən obyektidir. Kompleks gün ərzində 3 min nəfərə xidmət göstərə bilər. Burada 4 kanat xətti və 10 xizək yolu fəaliyyət göstərir. Kanat xətlərinin ümumi uzunluğu 6 kilometr, xizək yolunun uzunluğu isə 17 kilometrdir.

Heydər Əliyev Konqres Mərkəzi ilə tanışlıq da məktəblilərin üreyincə olub. Mərkəzdə çoxfunksiyalı 1200 yerlik konfrans zalı var və o, kresloların aşağı enməsi ilə müstəvi halına keçə bilir.

Tur-aksiya iştirakçıları günün ikinci yarısında Nic qəsəbəsindəki “Cotari” alban-udi kilsəsində olublar. Məlumat verilib aparılan arxeoloji qazıntıların nəticələri, eləcə də Qəbələ Arxeoloji Mərkəzində nümayiş olunan maddi-mədəniyyət nümunələri ilə tanış olublar. Məlumat verilib ki, Azərbaycanın ən qədim şəhərlərindən olan Qə-




ki, kilsə tarixi baxımdan qədim abidələrdən biridir. Nic qəsəbəsi tolerantlığın kiçik modeli hesab edilir. Qəsəbədə üç kilsə və iki məscid var. Altı min əhalisi olan qəsəbədə 3700 udi yaşayır. Onlar öz dilini, dinini, adət-ənənələrini 2500 ildir ki, qoruyub saxlayırlar.

Məktəblilər Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna da gedib, qədim Qəbələ şəhərinin xarabalıqları və ərazidə bələnin çox zəngin tarixi var. Bu rayondakı ölkə əhəmiyyətli qədim memarlıq abidələri mədəni irsimizin nadir inciləri hesab olunur.

Ağdaş, Füzuli, Göygöl, Siyəzən və Tovuz rayonlarının məktəbliləri ekskursiyanın üçüncü günündə Şəki və Zaqatalanın tarixi məkanları ilə tanış olacaq, görməli yerlərini gəzəcəklər.

**“Qəbələ”**

**İlkin Vəlizadə (foto).**

## Zəngin təəssüratlarla ayrılıblar



“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyaların sonuncu mərhələsi uğurla başa çatıb.

Ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərinin dərindən öyrənilməsi məqsədilə artıq beşinci ildir ki, təşkil edilən bu tur-aksiyalar Azərbaycan Prezidentinin yetişməkdə olan gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasına verdiyi böyük önəmin, göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Layihə çərçivəsində Ağdaş, Füzuli, Göygöl, Siyəzən, Tovuz, Quba, Qusar, Şabran, Xaçmaz və Xızı məktəblilərindən ibarət qruplar noyabrın 21-də ekskursiyalarını başa vuraraq Qəbələ şəhərindən yaşadıqları rayonlara yola düşüblər.

Qəbələ şəhərindəki “Karvansaray” və “Qafqaz Sport” otellərində qalan 400 məktəbli və onları müşayiət edən şəxslər ekskursiya müddətində Qəbələ, Şəki və Zaqatala rayonlarındakı görməli yerlərlə, muzeylərlə, tarixi məkanlarla yaxından tanış olublar.

Qəbələdəki Heydər Əliyev Konqres Mərkəzinə, “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksinə, “Gilan Qida Şəhərciyi”nə, Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, Nic qəsəbəsindəki “Cotari” alban-udi kilsəsinə ekskursiyalar məktəblilərin böyük marağına səbəb olub.

Tur-aksiya zamanı məktəblilər Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılıblar. Diqqətə çatdırılıb ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın yeni neft strategiyasının başlanğıcı hesab olunursa, bu strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyevin iştirakı ilə 2017-ci il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində imzalanan “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə işlənməsi müddətinin 2050-ci ilədək uzadılmasına dair saziş isə “Yeni əsrin müqaviləsi” adlandırılır. İmzalanma mərasimində bir sıra nüfuzlu dövlətlərin, dünyanın nəhəng neft şirkətlərinin rəhbər şəxslərinin iştirakı buna sübutdur.

Aksiya çərçivəsində məktəblilər arasında “Nə? Harada? Nə vaxt?” intellektual oyunu üzrə yarış da keçirilib.

Məktəblilər Qəbələdən zəngin təəssüratlarla ayrılıblar.

**“Qəbələ”**

**İlkin Vəlizadə (foto).**

*Biz Qubada Qırmızı qəsəbə, Cümə məscidi, Quba Soyqırımı Memorial Kompleksi, “ABAD Factory” İstehsalat Kompleksi, Tağlı körpü və başqa yerlərdə ol-*

## Qəbələ məktəblisi: Biz ölkəmizin multikultural dəyərləri ilə fəxr etməliyik

*duq. Mən Qırmızı qəsəbə haqqında oxumuşdum. Burada dağ yəhudilərinin yığcam yaşadıqları barədə məlumatım vardı. Qəsəbədə sinaqoqla yaxından tanış olduq. Bu, bizim xalqın tolerantlığının sübutudur. XVIII əsrdən bəri buradakı yəhudilər azərbaycanlılarla birlikdə sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Dünyanın başqa yerlərində bu mənzərəni görmək mümkün deyil. Biz ölkəmizin multikultural dəyərləri ilə fəxr etməliyik.*

*Bu sözləri Qəbələ məktəblisi-- “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Quba-Qusar-Xaçmaz marşrutu üzrə ekskursiyanın iştirakçısı Tünzalə Rzayeva söyləyib.*



*Qəbələ şəhər 2 saylı tam orta məktəbin şagirdi ekskursiya zamanı tariximizi öyrənməklə yanaşı, ölkəmizin regionlarının nə qədər inkişaf etdiyinin də şahidi olduqlarını bildirib. “Azərbaycanın hər bir rayonu özünəməxsus gözəlliyə malikdir. Gözəl təbiətə malik şimal rayonlarını gəzib-dolaşmaqla yanaşı, buranın tarixi, ənənələri və iqtisadiyyatı barədə ətraflı məlumatlar toplayırıq. Sabah Qusarda, daha sonra Xaçmazda olacağıq. Bu dörd günlük ekskursiya tətil günlərimizə əlavə rəng qatdı. Tur-aksiyanın təşkilatçılarına minnətdaram”, - deyə o qeyd edib.*